Turizmin davamlı inkişaf konsepsiyası 1990-cı illərdə turizmlə bağlı davamlı inkişaf ideyaları və prinsipləri əsasında meydana gəlmişdir.Bu yeni konsepsiya tezliklə qəbul edilərək beynəlxalq və yerli təşkilatlar tərəfindən irəli sürülmüşdür. Buna missal olaraq "Təbiəti mühafizə üzrə Beynəlxalq birlik", "Təbiəti qoruma üzrə Dünya Federasiyası" və "Avropa Milli və Təbii Parklar Federasiyası" 1991-ci ildə turizmin davamlı inkişaf konsepsiyasını turizm sahələri üçün marketinq və menecmentdə təbiətə, sosial, iqtisadi ekoloji təsiri nəzərə alaraq gələcək nəsillər üçün təbii və mədəni irsin qorunub saxlanılması istiqamətində müəyyən etmişdirlər. Bu müəyyənləşmə əsasən turizm (ekoturizm, kənd turizmi, şəhər turizmi, yaşıl turizm, biznes turizmi və s.) davamlı inkişaf prinsipləri əsasında inkişaf etdirilməlidir. Hal-hazırda, ekoloji problemlərin daha da kəskinləşməsi və ətraf mühit keyfiyyətinin gələcək nəsillər üçün qorunub saxlanılmasına görə sosial narahatlıqların güclənməsi mövcuddur.

Turizmin davamlı inkişafı turistləri, turist obyektlərinin və xidmətlərinin tədarükçülərini, daha geniş yaşayış səviyyəsi əldə etməyə çalışan ətraf mühit mühafizəçilərini, habelə yerli əhalini vahid məqsəd ətrafında birləşdirir. Hazırda turizm dünya iqtisadiyyatının aparıcı sahələrindən biridir və yüksək sürətlə inkişaf etməkdədir. Turizm fenomenini tələb və təklif baxımından araşdırmaq da olar: tələbin mənbəyi turistlər, təklifin mənbəyi isə görməli yerlər, obyekt və xidmətlər, nəqliyyat, habelə reklam və informasiyalardır. Bazar tendensiyaları bunu göstərir ki, turistlər getdikcə daha artıq dərəcədə fəal istirahətə meyl göstərir və ətraf mühitin vəziyyəti barədə daha yüksək tələblər irəli sürürlər, turist bazarları isə daha çox ixtisaslaşmış xarakter alır.Buna cavab olaraq turist məhsulu yaxud təklif də dəyişikliklərə uğrayır.

Davamlı turizm ölkənin istehsal və qeyri-istehsal sahələri ilə vəhdətdə inkişaf edir.Ona görə davamlı turizmi təcrid olunmuş, milli iqtisadiyyatdan kənarda fəaliyyətdə olan sahə kimi götürmək olmaz. Turizm sahələrarası istehsal kooperasiyasına malikdir, onunla əlaqədə olan digər təsərrüfat sahələrindən, ətraf mühitdən asılıdır. Nəqliyyat, kənd təsərrüfatı, tikinti-inşaat və digər sahələr turizmi zəruri vəsait, texnika, qida məhsulları və s.ilə təchiz edir. Digər sahələrlə vəhdətdə turizmin maddi texniki bazaları formalaşır. Müxtəlif sahələrin qarşılıqlı əlaqəsi zəminində turizm çox sahəli funksional sistem əmələ gətirir və davamlı olaraq inkişaf edir.

Ətraf mühitin qorunması: - ətraf mühitin mühafizəsi sahəsində hüquqlar və vəzifələr, - təbiətdən istifadənin normaları, - ətraf mühitin mühafizəsi sahəsində iqtisadi tənzimləmə, -ətraf mühitin ekoloji tarazlığının nizamlanması.

– Ətraf mühitin mühafizəsi sahəsində hüquqlar və vəzifələrə dövlətin, ictimai birliklərin, sahibkarların, yerli icmaların və turistlərin ətraf mühitin mühafizəsi sahəsində hüquqları və vəzifələrini müəyyən etmək, qanunvericiliyə uyğun olaraq təbii ehtiyyatlardan istifadə etmək, xüsusi mühafizə tələb edən dövlət milli və təbiət parklarını təşkil etmək, təbiətdən istifadəyə görə limitləri və kvotaları müəyyən etmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərlə icazənin verilməsi, yerli icmaları təbiətdən istifadəyə cəlb etmək daxildir.

– Təbiətdən istifadəyə ətraf mühitdən istifadə zamanı zərərli maddələrin, məişət və istehsalat tullantılarının minimuma endirməsi, keyfiyyət normativlərinə riayət etmək və ətraf mühitə zərəri minimum endirməklə ayrılmış təbii resurslardan qənaətlə istifadə etmək daxildir.

– Ətraf mühitin mühafizəsi sahəsində iqtisadi tənzimlənməsinə yerli icmaları ətraf mühitdən istifadə də iqtisadi maraqlarının artırılması, ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin proqnozlaşdırılması və maliyyələşdirilməsi, təbii ehtiyyatların mühafizəsində dövlət fondlarından istifadə daxildir.

– Ətraf mühitin ekoloji tarazlığının nizamlanmasına ekoloji tarazlığın pozulma dərəcəsinin nizamlanması, ətraf mühitə atılan və axıdılan tullantıların minimuma endirilməsi, sanitariya qaydalarına riayət olunması daxildir ("Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 1999).

Sosial inkişafa:- əhalinin məşğulluğunun təmin olunması, - turizm infrasturukturunun işçi qəbuletmə imkanları, -regionun ümumi sosial-iqtisadi inkişafında turizmin rolu, - sosial infrastruktur sahələrə turizmin təsiri kimi amillər təsir göstərir.

– Əhalinin məşğulluğunun təmin olunmasına: ümumi məşğulluqda turizmin payı, ortalama dünya və ya ölkə göstəricisi ilə müqayisəsi, gələcəkdə yeni iş yerlərinin açılmasında xidmət infrastrukturunun payı və xidmət infrastrukturunda turizmin payı daxildir. Bunlarıda bu cür qruplaşdırmaq olar: a) Turizmin icmalara təsiri (əhali baxımından), b) Turizmin idarəetmə sistemində bələdiyyələrin davamlı inkişafına təsiri, c) ərazilərdən səmərəli istifadənin sosial turizmə təsiri.

– Turizm infrastrukturunun işçi qəbul etmə imkanlarına: regionun, yaşayış yerinin, yaradılacaq infrastrukturun alt infrastruktur (dövlətin yaratdığı infrastruktur) və üst infrastrukturlarda əhalinin davamlı məşğulluğunun işsizliyə təsiri ilə müəyyənləşir. Əgər strateji dinamikliliyi təmin etmək istəyiriksə 1) İnfrastrukda çalışan işçilər, cəlb oluna biləcək işçilər və gələcəkdə bu infrastrukturun fəaliyyət müddəti ərzində nə qədər insanlar cəlb oluna bilər.2) Alt infrastruktur ilə üst infrastruktur arasında uyğunluğun müəyyən olunması. Bu uyğunluq ona görə müəyyən olunmalıdır ki, bunların biri digəri üçün problem yaratmasın. Ekoloji cəhətdən ətraf mühiti qoruya bilsin və həmin ərazinin cəlb ediciliyi saxlanılsın. Əgər bütün bunlar bir birinə uyğun gələrsə deməli üst infrastruktur əsas bazanın üzərində düzgün qurulmuşdur və o tamamlanmış olur. 3) Ərazi təminatı. Hər $km^2$ və ya hər hektar sahəyə düşə bilən yolların sıxlığı, sosial təminat imkanları, infrastruktur sahələri əhalinin gələcək yaşayış məntəqələri ilə uyğunluğun təmin olunması (yəni düz mütənasibliyin təmin olunması).

– Regionun ümumi sosial-iqtisadi inkişafında turizmin rolunun iki təsir forması vardır: 1) ümumi iqtisadi baxımdan təsir. Regionun, yaşayış yerinin ərazi təşkili daxilində formalaşmış ümumi iqtisadi gücü, burada çalışan işçilərin daimi və mövsümi işlərlə təmin olunması və s. daxildir. 2) əhalinin sosial şəraitinin yaxşılaşmasına görə olan təsir. Turizm sənayesinə birbaşa və ya dolayı yolla cəlb olunan işçilər sayı onların məşğulluqda payı ilə müəyyən edilir. Bu göstərici birbaşa cəlb olunan işçilərin sayında 10 %-dən çox olarsa daha effektiv sayılır. Digər tərəfdən yerli icmaların kənd təsərrüfatı məhsullarına birbaşa bazar əldə etməsi, həmçinin müxtəlif xidmət və yerli istehsalda multiplikasiya effekti yaratması da əhalinin sosial şəraitinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayır.

– Sosial infrastruktur sahələrinə turizmin təsiri: gələcək inkişafı təmin etmək üçün təhsilin təsiri və texniki təhsil sisteminin yaradılması, əhalinin maarifləndirilməsində QHT-lərin rolunun artırılması, əhalinin öz evlərini və digər özlərinin istehsal etdiyi məhsulları turizmə cəlb edərək sosial təminatının yaxşılaşdırılması, həmçinin əsas işdən başqa əlavə gəlir mənbəyinin yaradılması məqsədilə yerli əhalinin turizmə cəlb olunaraq regionun turistlərə təklif etdiyi xidmələrin sayının artırılması aiddir.

İqtisadi inkişaf:

– Sahə miqyasında inkişaf, -yerli icmaların inkişafı,- turizmin Dövlət Büdcəsində rolu.

– Sahə miqyasında inkişafa: bölgənin ümumi iqtisadi inkişafının statistik rəqəmlərlə təhlili, ona təsir edən sahələr, turizm mərkəzlərinin formalaşdırılması, turistlərin cəlb olunma imkanlarının artırılması, cəlbediciliyin qorunması baxımından mövcud ehtiyyatların qorunması daxildir.

– Yerli icmaların inkişafına: 1) maarifləndirmə yolu ilə, insanların turizmdən nə qədər gəlir götürə biləcəyi haqqında məlumatlandırma, 2) icmaların turizmə cəlb olunması, yerli icmaların ərazi baxımından turist qəbul etmə imkanları, 3) turizm sektoruna cəlb olunan icmaların gəlir əldə etmə imkanlarının müəyyən edilməsi, icmaların inkişafı üçün kütləvi turizm tədbirlərinin təşkili.

– Turizmdən dövlət büdcəsinə ödəmələr: 1) ÜDM-də payı, 2) dövlət büdcəsində turist ödəmələrinin payı, 3) turizmin tədiyyə balansında payı.

Milli irs nümunələrinin qorunması:- dövlət siyasətinin əsas istiqamətləri, - mədəni sərvətlər və mədəni irs, - mədəni sərvətlərdən istifadənin tənzimlənməsi, - mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq.

– Dövlət siyasətinin əsas istiqamətlərinə mədəniyyət sahəsində peşəkar kadrların hazırlanması, milli mədəni irsin müəyyən edilməsi, sistemləşdirilməsi və inkişafı, milli mədəni irs nümunələrinin və mədəniyyət obyektlərinin yaradılması, qorunması və təşviqi, milli mədəni irsin inkişafının maliyyə mənbələri ilə təmin edilməsi, mədəni, ekoloji, bioloji və idman turizminin inkişaf etdirilməsi və təşviqi, xalq yaradıcılığının və floklor nümunələrinin inkişafı, təbliği, tarixi abidələrin qorunub saxlanılması və zənginləşdirilməsi ilə bağlı tədbirlərin təşkili aiddir.

– Mədəni sərvətlər və mədəni irsə mədəni sərvətləri,mədəni iş nümunələri, daşınmaz əmlaklar, sualtı mədəni irs, qeyri-maddi mədəni irs, milli kulinariyya nümunələri daxildir.

– Mədəni sərvətlərdən istifadənin tənzimlənməsi öz tarixi və bədii təyinatına uyğun və müəyyən edilmiş qaydada həyata keçirilir.

– Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığa beynəlxalq təşkilatlarla əməkdaşlıq vasitəsilə milli mədəniyyətin xarici ölkələrdə təbliği, mədəni sərvətlərin birgə istehsalının stimullaşdırılması, ən qabaqcıl təcrübələrin beynəlxalq mübadiləsi aiddir. Həmçinin mədəniyyət təsisatlarına xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən maliyyə vəsaitinin ayrılması, dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir (Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş tarix və mədəniyyət abidələri, 2011: 92-272).

Turizmin davamlı inkişafı vasitəsi ilə bütün resurslar həyat fəaliyyətinin, bioloji müxtəlifliyin, ekoloji miqyasın, mədəni bütövlüyün qorunub saxlanılması və ehtiyacların ödənilməsi istiqamətində idarə oluna bilər. Buna görə də, davamlı turizm konsepsiyası indiki və gələcək təsirləri (iqtisadi, sosial və ətraf mühit təsirləri və s.) nəzərə alan və turistlərin, sənayenin, yerli icmaların, hətta ətraf mühitin müxtəlif tələbatlarını nəzərə alan turizm forması kimi müəyyən oluna bilər.

Turizmin davamlı inkişaf konsepsiyası bütün turizm sahələrini özündə əks etdirir: kütləvi turizm, mədəniyyət turizmi, dağ turizmi, çimərlik turizmi, spa turizmi, biznes turizmi, sağlamlıq turizmi, kənd turizmi, şəhər turizmi və s. (Fernandez, Sanchez, Rivero, 2009: 277-296).

İ.Muntele və C.İatunun konsepsiyalarına görə, ərazinin potensial turist təklifini təşkil edən təbii, sosial, mədəni və tarixi ehtiyatların cəmi ərazinin turizm potensialını təşkil edir (Muntele, Iatu, 2006: 35-47). Ümumiyyətlə, ərazinin turist potensialı barədə fikir və mülahizələrdə çox zaman turizm ehtiyatları ilə turizm potensialı eyniləşdirilmişdir. Bu isə bir çox hallarda turizm potensialının mahiyyətinin qeyri-dəqiq izahına gətirib çıxarmışdır. Hazırda turizm potensialı anlayışına iki cür yanaşma vardır. V.Qlavan turizm potensialını qeyri-maddi amillərlə bağlayır. Onun fikrinə görə, turist fəaliyyəti üçün təbii və sosial mühitin təklif etdiyi imkanlar toplusu aiddir (Glavan, 2006: 35-46). K.M.Hall turist potensialı olaraq subyektiv şəraitin baza şərtlərini götürmüşdür (Hall, 1992: 141-158). Bu, turist potensialına qeyri-maddi olan şəklində yanaşmadı. Şübhəsiz ki, turizm potensialı yalnız qeyri-maddi formada təyin oluna bilməz.

Turizm potensialının qiymətləndirilməsi məsələsinə Leader Avropa müşahidə proqramında da baxılmışdır. Bu proqram çərçivəsində aparılmış tədqiqatda turist potensialının bazar ənənələrinin və rəqabətin nəzərə alınması şərti turist təklifi ilə turist tələbi arasındakı asılılıq əsas götürülmüşdür (LEADER European Observatory – Evaluating a territory's tourism potential, 2005: 165-174). Turizm potensialı müəyyən subyektiv imkan və şəraitin qeyri-maddi ölçüsüdür.Turizm təklifi həm mövcud, həm də mümkün komponentləri özündə cəmləşdirir.

A.Paul və D.Villyam tələblə təklifin qarşılıqlı təsirini turizm cəlbetməsi kimi təyin etmişdir. Turizm potensialından fərqli olaraq, turizm cəlbediciliyi mümkün və mövcud elementlərlə turizm tələbi arasında asılılığa əsaslanır (Zaharia, Stanescu, Stoian, 2010: 155-167).

## Nəticə

Davamlı inkişafın təmin olunmasında turizm ehtiyatlarından istifadənin müəyyənləşdirilməsinin və qiymətləndirilməsinin aparılması hesab edilir. Bu baxımdan turizm ehtiyatlarının qiymətləndirilməsində müxtəlif nəzəriyyələrin təhlilinə ehtiyac vardır.

## Ədəbiyyat


1. Paşayev, N., Əyyubov, N., Eminov, Z. (2010). Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı: Çıraq, 416 s.
2. Dennis, M., Donella, M., Jorgen, R., Growth, D. (2007). 30 years later. Translated from English. M.: ICC, 342 p.
3. Nəsiboğlu, M. (2009). Ekoloji təhlükəsizlik və ətraf mühitin monitorinqi. İdman və ətraf mühit. Seminar materialları. Bakı: MOK nəşri, s.14-16.
4. Petrasov, I. (2001). The concept of sustainable development in relation to world tourism. M., Thought, 230 p.
5. Zaharia, R., Stanescu, A., Stoian, C. (2010). Commercial Activitys Contribution to Sustainable Development by Social Responsability Actions: A Vision of SMES. Amfiteatru Econ Romania, p.155-167
6. Turizm davamlı inkişafı. (2012). Yerli planlaşdırma üzrə mütəxəssislər üçün vəsait. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi. Bakı, 59 s.
7. Eminov, Z. (2006). Davamlı inkişaf konsepsiyası: Azərbaycanda həyata keçirilməsinin əsas istiqamətləri və problemləri Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, X cild. Bakı, s.52-59.
8. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. (1999). Azərbaycan qəz. Bakı, 4 avqust.
9. Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş tarix və mədəniyyət abidələri. (2011). Azərbaycan Respublikası Mədəniyyət və Turizm Qanunvericiliyi Toplusu. II cild, Bakı: Avrasiya press, s.92-272.
10. Fernandez, J., Sanchez, P., Rivero, M. (2009). Measuring Tourism Sustainability. Proposal for a Composite Index. Tourism Economic. Spain, 15, p.277-296.
11. Muntele, I., Iatu, C. (2006). Tourism geography – Concepts, methods, spatial patterns, Sedcom Libris, Iati, XIV, p.25-36
12. Glavan, V. (2006). Tourism potential and ist development. Ed. Fundatiei Romania de Maine, Bucharest, p.35-46.
13. Hall, C. (1992). Adventure, Sport and Health Tourism. In Special Interest Tourism Weiler B, Hall CM (eds).Bellhaven Press: London, p.141-158
14. LEADER European Observatory – Evaluating a territory's tourism potential. (2005). Romania, p.165-174


**Rəyçi: i.ü.f.d. Afət Həsənova**

Göndərilib: 18.09.2022 Qəbul edilib: 15.11.2022

DOI: https://doi.org/10.36719/2789-6919/15/20-22

**Xədicə Qabil qızı Babayeva**
Bakı Avrasiya Universiteti
dissertant
khadija.babayeva@abc.edu.az

# İRAN QAŞQAYLARI VƏ AZƏRBAYCAN TÜRKLƏRİNİN ORTAQ DİLİ VƏ TARİXİNƏ ÜMUMİ BAXIŞ

**Xülasə**

Məqalə Oğuz qövmünün bir parçası olan İran qaşqaylarına həsr olunmuşdur.Araşdırmada Qaşqayların İrana yerləşim tarixindən, habelə onların mənsubiyyətindən bəhs olur. İran qaşqayları ilə Azərbaycan türkləri arasında mövcud qohumluq əlaqələri, onların eyni soykökə mənsubluğundan bəhs olunur. İran qaşqaylarının tarixini araşdıran bir çox mənbələrə istinad edilir. Bu mənbələr qədim dövrdən müasir dövrə qədər, etnoqraf və türkoloqların araşdırmalarına dayanır. Qaşqayların İranın Fars bölgələrinə daha sonra yerləşdirilmələrinin səbəbləri araşdırılır. Eyni zamanda məqalədə Qaşqay mədəniyyətinə də göz atılır və bu mədəniyyətin Azərbaycan türkləri ilə eyni mənbədən qaynaqlandığı sübuta yetirilir.

***Açar sözlər:*** *Azərbaycan, türk, dil, İran, mədəniyyət*

**Khadija Gabil Babayeva**
Baku Eurasian University
dissertation student
khadija.babayeva@abc.edu.az

## An overview of the Iranian Qashgais and Azerbaijani Turks' common language and history

**Abstract**

The article is dedicated to the Iranian Qashqais, a part of the Oghuz ethnic group. The research deals with the history of the Qashqais entering Iran, as well as their affiliation. The relationship between the Iranian Qashgais and the Azerbaijani Turks, their belonging to the same ancestry, is discussed. Many sources are cited that investigate the history of the Iranian Qashqais. These sources are based on the researches of ethnographers and Turkologists from ancient times to modern times. The reasons of the Qashqai's relocation to the Persian region of Phars are investigated. At the same time, the article mentions the Qashqai culture and proves that this culture originates from the same source as the Turks of Azerbaijan.

***Keywords:*** *Azerbaijan, Qashqai, Turkish, language, Iran, culture*

## Giriş

Türk tarixçilərinin, etnoqraflarının o cümlədən türkoloqlarının araşdırmaları nəticəsində aydın olur ki, bu gün Yer kürəsinin müxtəlif ərazilərinə yayılmış türk tayfaları eyni genetikanın daşıyıcılarıdırlar. Türk qövmləri sırasında Oğuz türklərinin də xüsusi yeri və rolu vardır. Oğuz türklərinin xüsusi yerləşim ərazilərindən biri də İran ərazisidir.

**Qaşqay türklərinin İrana yerləşimi.** Məhəmməd Əmin Rəsulzadə "İran Türklər"i əsərində İran türkləri ya İran türklüyündən danışılanda ilk öncə xatırlanan Azərbaycan ərazisi olduğunu bildirir. Lakin, bununla yanaşı İran ərazisində Oğuz qövmünə aid Qaşqay tayfalarının da yaşamaqda olduğunu qeyd edir (1).

Türk mədəniyyətinin araşdırıcılarından olan Dilek Ataizi İran İslam Cümhuriyyətində yarı köçəri yaşam tərzini sürdürən və Oğuz soyundan gələn Qaşqaylar haqqında "Kaşqay türklərinin

dili" adlı əsərində məlumat verərkən bu tayfanın özünü türk adlandırdığını və türkcə danışdığını bildirir (Ataizi, 2017: 33-35).

Günümüzdə Qaşqay türkləri İranın mərkəz və güneydə yarı köçəri həyat sürən Oğuz boyundan olan türk xalqıdır. Cavad Safinəjad Aşayir-I Merkez-I Fars adlı əsərində Qaşqay elindən danışarkən belə yazır ki, qaşqay ilinin Səfəvilər dövründən əvvəl Quzey Qafqazdan İrana köç etdiyini, Şah Abbas qaşqaylarının isə daha sonralar Fars bölgəsində yerləşdirilməsindən bəhs etmişdir (Ataizi, 2017: 33).

Qaşqaylarla bağlı qədim qaynaqlardan Qaznəli Sultan Mahmud dönəmində yaşamış tarixçi Ebulfazl Beyhakının Tarih-I Beyhaki və ya digər adı ilə Tarixi-Mesuidi əsərində isə Səlcuqlar zamanında Kaşqarda yaşayan Qara tatarlardan təqribən 20 000 Sad Bin Zengi ilə birlikdə Fars bölgəsinə yerləşdirildiklərindən bəhs olunur (Menuçehr, 2006: 15).

Hazırda aparılan demoqrafik araşdırmalara görə qaşqayların ümumi sayının üç milyon olduğunu və onlardan 2.5 milyonunun İranda və onun mərkəzi şəhərlərindən olan Şirazın ətrafında yaşadığı bildirilir.

Məhəmməd Əmin Rəsulzadənin araşdırmalarında göstərilir ki, Qaşqaylar Tehran bölgəsindən Zərəndə Kərəc, Xar, Veramində farslarla eyni bölgəni paylaşır. O cümlədən Qəzvin, Həmədan bölgələrinin bir çox yerlərində yaşayan türklərin Qaşqaylar olduğunu qeyd etməkdədirlər (Rəsulzadə, 2013: 44).

Aydın Qasımlı özünün "Türklər" əsərində yazır: "Bu gün İran deyilən məmləkətdə beş böyük, dörd kiçik etnos, 37 faiz Türk, 36 faiz Fars, 8 faiz Gilək və Mazandaranlı, 7 faiz Kürd, 4 faiz Lor, 3 faiz Ərəb, 2 faiz Lək, 2 faiz Bəluc və 1 faiz digərləri yaşayır" (Qasımlı, 2012: 376).

Fars vilayətinin ən sıx və ən nüfuzlu qəbiləsi olan Qaşqay tayfası Fars vilayətinin qərb və şimal-qərbini tutmaqdadır. İranın ikinci böyük tayfası olaraq beş böyük və bir neçə kiçik tayfadan ibarətdir (1).

Fərqli fikir söyləyən alimlərdən biri Məhəmməd Tağı Zehtabi Qaşqayların İrana yerləşmələrini eramızın ilk əsrlərinə aid edir və yazır ki, miladın ilk əsrlərindən Orta Asiyadan gələn Türk elləri – Sarpırlar, Savırlar, Gəncəklər, Gərgərlər, Vənəndlər, Qarxunlar, Qazanlar, Muğanlar, Kəngərlər, Qaşqaylar və başqaları yerli Türklərlə bir millət kimi qaynayıb-qarışmışdırlar (Məhəmmədtağı, 67). Xalacları Qaşqayların sələfi hesab edənlərdə az deyildir. Mahmud Kaşğarlı Xalaclar (Kalaclar) Oğuz boylarından biri hesab etmişdir.

Azərbaycanda azərbaycanlıların yaşadığı ərazidə yenə də bir çox kənd, qəsəbə, rayon və yaşayış məntəqələrinə təsadüf olunur ki, onların adları qaşqay qəbilə və tirə adlarının çoxu ilə uyğun və bəzilərinin isə eynidir. Məsələn, Bakının 20 kilometrliyində yerləşən Novxanı kəndini, qaşqayların tərkibində olan əhmədli tirəsini və s. misal göstərmək olar.

Qaşqaylardan M.Bəhmənbəyli və Məlik Mənsurun "Qaşqaylar Qafqaz dağları ətəklərindən köçüb bir neçə əsr Bakı və Ərdəbil vilayətlərində sakin olduqdan sonra İranın cənubuna – Frasa gəlmişdirlər" mülahizəsini mühüm bir həqiqət kimi qəbul etməliyik. Burada tayfa, tirə, oba, kənd və rayon adlarının müqayisəsi, dəqiqləşdirilmələr qaşqayların böyük əksəriyyətinin Azərbaycan mənşəli və Azərbaycan xalqına mənsub olmalarını, Azərbaycandan köçüb Farsa getmələrini isbat edən əsaslı dəlildir. Alim coğrafi adların tarixlə bağlılığını belə izah edərək yazır ki "toponomik dəlil çox mühüm tarixi mənədir" (İbrahimov, Qaşqaylar, 95).

Tağı İbrahimov "Qaşqaylar"adlı əsərində "dil və ədəbiyyat-danışıq dili, yazı dili, nəsr, şeir, folklor bunlarla bağlı olan incəsənət sahələri hər bir azlığın hansı xalqa mənsub olduğunu müəyyənləşdirən əsas əlamətlərdəndir. Qaşqay eli tərkibində birləşən qəbilə tayfa və tirələrin hamısının dili Azərbaycan dilidir" (İbrahimov, Qaşqaylar, 95).

İbrahimov əsərində Fars əyalətində təkcə qaşqayların deyil, türkdilli əhalinin hamısının Azərbaycan dilində danışdığını və vilayətlər arasında çox az ləhcə fərqinin görünməsinə baxmayaraq, onların hamısının dilinin eyni olmasını qeyd etmişdir. Bir çox alimlər o cümlədən İsveç şərqşünası Yarrinq və başqaları qaşqayların danışdığı dilin Azərbaycan türkcəsi olduğunu dəfələrlə qeyd etmiş hətta, M.S.İvanovonların yazılarını belə öz əsərində qeyd etmişdir.

## Nəticə

Apardığımız nəticələrdən aydın olur ki, türk oğuz qövmünün bir parçası olan və hazırda böyük əksəriyyəti İranda məskunlaşan qaşqaylar Azərbaycan türkləri ilə eyni soykökə sahibdirlər. Bunu isbat edən mənbələr qaşqayların qədim oğuz türk qövmü olduğunu və türk dövlət quruculuğunda mühüm rol oynadığını isbat edir. Bununla yanaşı onların, əsasən, Azərbaycan türklərinin yaşadığı Ərdəbil bölgəsindən tarixi səbəblərə görə Fars bölgəsinə yerləşdirildiyi göstərilir. Lakin bütün bunlara rəğmən onlar bu gün də öz dilinə və mədəniyyətinə sahib çıxmağa davam edir.

## Ədəbiyyat

1. https://www.academia.edu/33405411/Ka%C5%9Fkay_A%C5%9Firetinin_Men%C5%9Fei_ve_Tarihi_Hakk%C4%B1nda_Yakla%C5%9F%C4%B1mlar-Kaşkay. Approaches about the origin and history of their tribes, chronicler international history journal yl-sayı s-154-Yanar Şener
2. Ataizi, D. (2017). Qaşqay türklərinin dili. Ankara: Türk dil Qurumu. 313 s.
3. Menuçehr, K. (2006). Tarixi-i Mübarəzit-i Mərdum-i İL-i Kaskayi. Şiraz: Kiyan Nəşr nəşriyyatı. 16 s.
4. Rəsulzadə, M. (2013). İran türkləri. Bakı, Təknur. 100 s.
5. Qasımlı, A. (2012). Türklər. Bakı, 529 s.
6. Məhəmmədtağı, Z. İran Türklərinin əski tarixi. İkinci cild: İskəndər dövründən İslama qədər. Təbriz, 1379 s.
7. İbrahimov, T. Qaşqaylar. Bakı: Elm., 212 s.

**Rəyçi: f.ü.e.d. Fərəh Cəlil**

Göndərilib: 09.09.2022 Qəbul edilib: 10.11.2022

DOI: https://doi.org/10.36719/2789-6919/15/23-25

**Nəhayət Mübariz qızı Hüseynli**
Bakı Slavyan Universiteti
bakalavr
nehayet.huseynli@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT HÜQUQU: PREDMETİ, VƏZİFƏLƏRİ, PRİNSİPLƏRİ

## Xülasə

Sözügedən məqalədə Azərbaycan Respublikası cinayət hüququnun anlayışından bəhs edilir. Burada cinayət hüququnun mahiyyəti, predmeti və prinsipləri müzakirə edilir. Məqalədə göstərilir ki, hüquq prinsipləri həm obyektiv, həm də subyektiv kateqoriyadır. Onların obyektivliyi özlərində cəmləşən əsas ideyaların cinayətkarlıqla mübarizə sahəsindəki obyektiv tələbatı əks etdirməsində və həm hüququn konkret normalarında, həm də hüquqtətbiqetmə fəaliyyətində reallaşması zamanı öz məcburi təcəssümünü tapmasında istifadə olunur. Prinsiplərin subyektivliyi onların insanların şüurlu fəaliyyətinin məhsulu olması ilə müəyyən edildi. Prinsiplər onların obyektiv qanunauyğunluqlarının dərk edilməsi əsasında insanlar tərəfindən formalaşdırılır. Sonra onlar ictimai şüur tərəfindən qavranılır və hüquq ideologiyasının tərkib hissəsi qismində üzə çıxır.

***Açar sözlər:*** *cinayət hüququ, predmet, vəzifə, prinsiplər, tənzimetmə*

**Nahayat Mubariz Huseynli**
Baku Slavic University
bachelor
nehayet.huseynli@gmail.com

## Criminal law of the Republic of Azerbaijan: subject, duties, principles

## Abstract

The mentioned article discusses the concept of the criminal law of the Azerbaijan Republic. Here the essence, subject and principles of criminal law are considered. The article shows that legal principles are both objective and subjective categories. Their objectivity is used to reflect the objective needs of the main ideas in the field of combating crime and finds its obligatory embodiment both in specific rules of law and in law enforcement. The subjectivity of the principles was determined by the fact that they are the product of the conscious activity of people. Principles are formed by people based on the perception of their objective laws. Then they are perceived by the public consciousness and act as part of the legal ideology.

***Keywords:*** *criminal law, subject, duty, principles, regulation*

## Giriş

Cinayət hüququ hüququn ən geniş və fundamental sahələrindən biridir. Onun iki əsas və başlıca anlayışı vardır: cinayət və cəza. Cinayət hüququnun toxunduğu bütün məsələlər də məhz bu iki anlayışla sıx surətdə və bilavasitə əlaqədardır. Belə ki, ölkənin ictimai həyatı üçün təhlükəli olan əməllərin cinayət olması və cinayətə görə cəzanın verilməsi ilə bağlı münasibətlər yaranır. Bu münasibətlərin bir tərəfində cinayət törətmiş şəxs, digər tərəfində isə həmin şəxsi cəzalandırmağa səlahiyyətli olan dövlət durur. Göstərilən münasibətlər hüquq normaları ilə tənzimlənir. Bu normaların məcmusu cinayət hüququ adlanır. Cinyət hüququ dedikdə, cinayət ilə bağlı olaraq cinayət törətmiş şəxslə dövlət arasında yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür (1).

“Cinayət hüququ cinayətkarlıqla mübarizədə strateji və taktiki cəhətləri müəyyən edən cinayət üzrə siyasətin həyata keçirilməsi vasitəsidir. Müasir mərhələdə bu siyasət iki əsas tendensiya ilə xarakterizə olunur. Birincisi, ağır cinayət törədən, yaxud cinayət qanununu dəfələrlə pozan şəxslərə

(xüsusilə residivistlərə, peşəkar cinayətkarlara-mafiya strukturlarının, yaxşı təşkil olunmuş cinayət qruplarının rəhbərlərinə) sərt cəza tədbirlərinin tətbiqi, ikincisi, böyük ictimai təhlükə hesab edilməyən cinayətlərə görə cinayət məsuliyyətinin sferalarının məhdudlaşdırılması.Belə ki, cinayət qanununu ilk dəfə pozan şəxsə cəmiyyətdən təcrid etmə ilə əlaqədar olmayan cəza tətbiq edilir. Bu, şərti məhkumetmə, hökmün icrasını təxirə salma, habelə cəzanı əvəz edən digər inzibati, tərbiyəvi və ictimai xarakterli tədbirlərlə həyata keçirilə bilər”(2).

Cinayət hüququ hüququn başqa sahələrindən özünün predmetinə – tənzim etdiyi ictimai münasibətlərin xarakterinə görə fərqlənir. Bildiyimiz kimi, hər bir hüquq sahəsinin predmeti o hüquq sahəsinin normaları ilə tənzimlənən müəyyən ictimai münasibətlərdir. Məhz hüququn tənzimetmə predmeti hüquq sisteminin sahələrə bölünməsinin başlıca meyarı hesab edilir. Cinayət hüququnun hüquqi nizamasalma predmeti-cinayət hadisəsininbaş verməsi ilə əlaqədar yaranan cinayət-hüquqi münasibətlərdir.Ədəbiyyatda cinayət hüququnun predmetini təşkil edən ictimai münasibətlər öz spesifikliyini tənzimləmək məqsədi ilə onlara təsir edən hüquqi vasitələrin məcmusu olaraq hüququn müxtəlif sahələrə ayrılmasında müəyyən rol oynayır (3).

Cinayət qanununun məkana görə qüvvəsinin universal prinsipinin tələblərinə riayət etmək Azərbaycan Respublikasının cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq-hüquq öhdəliklərindən irəli gəlir. Universal prinsipin mahiyyətinə görəşəxsin hansı ölkənin vətəndaşı olmasından və cinayətin hansı ölkənin ərazisində törədilməsindən asılı olmayaraq, onu istənilən dövlətin özünün milli qanunvericiliyi ilə cinayət məsuliyyətinə almaq səlahiyyəti vardır.

Cinayət hüququ hüququn başqa sahələrində ən böyük özünün predmetinə-tənzim etdiyi ictimai münasibətlərin xarakterinə görə fərqlənir. Bildiyimiz kimi, hər bir hüquq sahəsinin predmeti bu hüquq sahəsinin normaları ilə tənzimlənən müəyyən ictimai münasibətlərdir. Məhz, bu hüququn tənzimetmə predmeti hüquq sisteminin sahələrə bölünməsinin başlıca meyarı hesab edilir. Cinayət hüququnun hüquqi nizamasalma predmeti-cinayət hadisəsinin baş verməsi ilə əlaqədar yaranan cinayət-hüquqi münsibətlərdir. Ədəbiyyatda cinayət hüququ ilə tənzim olunan və cinayət hüququnun predmetini təşkil edən ictimai münasibətlərin üç növü mövcuddur:

Birinci növ ictimai münasibətlər tənzimedici və qoruyucu cinayət hüquq münasibətləridir. Cinayət hüququnun tənzimetmə predmeti cinayətin törədilməsi ilə yaranan neqativ ictimai münasibətlərdir. Bu, qanunun qadağan etdiyi cinayətkar hərəkətə yol vermiş şəxs ilə istintaq orqanlarının simasında dövlət arasındakı münasibətlərdir. Bu münasibətdə tərəflərin, yəni cinayət törətməkdə təqsirli olan şəxslə dövlətin hüquq və vəzifələri yaranmış cinayət hüquq münasibətlərinin məzmununu təşkil edir. Bu hüquqi münasibətlərin hər bir subyekti müəyyən hüquqlara malikdir və müvafiq vəzifə daşıyır. Belə ki, birinci subyekt cinayət törətdiyinə görə cinayət qanununun onun üçün nəzərdə tutduğu xoşagəlməz nəticələrlə üzləşməsi, həmin cinayət hüquq normalarını müəyyən etdiyi cəzanı çəkməlidir. Digər subyektin-dövlətin, onun adından çıxış edən məhkəmənin qanunu tətbiq etmək, təqsirkarı cəzalandırmaq hüququ vardır. Ancaq bu hüquq həmin orqanları məcbur edir ki, cinayət törətmiş şəxsi cinayət məsuliyyətinə cəlb etsin, məhkəmə cinayət məsuliyyəti şərtlərinə uyğun olaraq cəza müəyyən etsin. Bununla belə, yaranmış cinayət-hüquq münasibətləri çərçivəsində cinayət törətməkdə təqsirli bilinən şəxsin öz hüququ, dövləti təmsil edən məhkəmənin də müəyyən vəzifəsi vardır.

Təqsirkarın törətdiyi əməli nəzərdə tutan qanunda məsuliyyətə alınmasını tələb etmək hüququ vardır. İstintaq orqanlarının və məhkəmənin vəzifəsi törədilən cinayətdəşəxsin təqsirli olduğunu aydınlaşdırmaq, onun əməlini dürüst nəzərdə tutan qanunla məsuliyyətinin həll edilməsinə təminat verməkdir. Beləliklə, cinayət hüququnun tənzimetmə predmeti cinayətin törədilməsi ilə cinayət törədən şəxslə dövləti təmsil edən səlahiyyətli orqanlar arasında hüquq münasibətlərinin reallaşdırılmasıdır.

Cinayət hüququnun mühafizəedici predmeti-qorunması zəruri olan cinayət qanunu ilə müdafiə altına alınan ictimai münasibətlər sistemidir. Qanun cinayət sayılan əməlləri və bunlara görə tətbiq ediləcək cəzaları cinayət-hüquqi qadağalarla vətəndaşlar üzərində cinayət törətməkdən çəkinmə öhdəliyi müəyyən etməklə, cəmiyyətdə insanların davranışına müəyyən təsir etməklə, cəmiyyət üzvlərini cinayətdən çəkindirərək ictimai münasibətləri qoruyur.

Cinayət hüququnun predmetinə daxil olan üçüncü növ ictimai münasibətlər cinayət hüquq normaları ilə tənzimlənir. Bu normalar təhlükəli qəsdlərdən zəruri müdafiə, sonzərurət, cinayətkarın

yaxalanması zamanı və s. zəruri hallarda və cinayətkar hərəkətləri istisna edən digər şəraitdə adamlara, qarşı tərəfə zərər yetirmək hüququ verir. Burada, məsələn, özünün zəruri müdafiə hüququnu həyata keçirən adam, bir tərəfdən şəxsiyyətin, cəmiyyət və ya dövlətin maraqlarına qəsd edənlə, mövcud olan cinayət-hüquqi qadağaları pozanla hüquqi münasibətlərə girir. Digər tərəfdən, müdafiə olunanın davranışını yalnız məhkəmə və prokuror, istintaq orqanları düzgün saya bilir. Hər bir halda məhz onlar təhlükəli qəsddən müdafiə zamanı zərər yetirilməsi ilə bağlı hadisəni hərtərəfli araşdırmalı və müdafiə olunması hərəkətinin qanuniliyini təsdiq etməli, rəsmi olaraq onu məsuliyyətdən azad etməlidirlər.

Cinayət hüququnun predmetini təşkil edən ictimai münasibətlərin öz spesifik tənzimləmə metodu vardır. Metod ictimai münasibətləri tənzimləmək məqsədi ilə onlara təsir edən hüquqi vasitələrin məcmusu olaraq hüququn müxtəlif sahələrə ayrılmasında müəyyən rol oynayır.

"Cinayət hüquqnun əsas vəzifəsi-cəmiyyəti ən təhlükəli hüquq pozuntularından müdafiə etməkdir. Buna görə də cinayət hüququnun əsas funksiyası mühafizəedici funksiyadır. Bununla belə, cinayət hüququ ümumi və xüsusi xəbərdaredici, həmçinin, tərbiyəvi funksiyaları da həyata keçirir" (4).

Cinayət hüququnun prinsipləri cəmiyyətin inkişaf səviyyəsinə söykənir, cəmiyyətdə vətəndaşların hüquq və azadlıqlarının qarantına xidmət edir. Ümumiyyətlə, hüquqi prinsiplərin cinayət hüquq norması ilə əlaqəsi necədir? Cinayət hüququ prinsipləri hansı istiqamətlərdə cinayət hüququ funksiyalarına təsir göstərir? Cinayət hüququ prinsipləri obyektiv, yaxud subyektiv xarakterli fenomenlərdirmi? Öncə qeyd edək ki, hüquqi prinsiplər tarixi və məntiqi baxımdan bir tərəfdən obyektiv ictimai varlığı, onun qanunauyğunluqlarını əks etdirir; digər tərəfdən belə inikas tarixən insanların şüurundan keçərək formula edildiyi üçün onun həm də subyektiv tərəfi vardır. Hüquqi prinsiplər idrak nəzəriyyəsi baxımından bir tərəfdən müəyyən tarixi dövrdə yaşayan insanların, hakim qüvvələrin hüquqla bağlı ideyalarından, müddəalarından ibarətdir. Digər tərəfdən hüquqi prinsiplər ümumiləşdirilmiş formada tələblərdən ibarət olub, ictimai münasibətlərin iştirakçılarına ünvanlanır. Beləliklə, cinayət hüququnun prinsipləri dedikdə, əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilikdə ifadə olunan və əməliyyat-axtarış fəaliyyətinin təcrübəsində formalaşmış, cəmiyyətin inkişafının siyasi, iqtisadi və sosial qanunauyğunluqlarını, eləcə də, əməliyyat axtarışı fəaliyyətinin mahiyyətinə, məqsədlərinə, vəzifələrinə və həyata keçirilməsi prosesinə münasibətdə vətəndaşların əxlaqi və hüquqi təsəvvürlərini əks etdirən ümumi müddəalar, rəhbər ideyalar başa düşülür" (5).

## Nəticə

Beləliklə, məqalədən belə nəticə çıxartmaq olar ki, cinayət hüququ vahid hüquq sisteminin müstəqil sahəsi kimi cinayət məsuliyyətinin prinsiplərini və əsaslarını, cinayət sayılan əməllərin dairəsini, cinayətə görə tətbiq edilən cəzanın növlərini və həddini, cinayət məsuliyyətindən və cəzadan azad etmənin şərtlərini müəyyən edən, dövləthakimiyyətinin ali orqanı tərəfindən qəbul edilən hüquq normalarının məcmusudur. Cinayət hüququnun bir sıra digər hüquq sahələri ilə, o cümlədən, cinayət-prosessual, cəzalarn icrası hüququ, inzibati hüquqla oxşar cəhətləri vardır. Bu oxşarlıq həmin hüquq sahələrinin hüquq pozuntularına qarşı yönəlməsindən, onların vəzifələrindən irəli gəlir.

## Ədəbiyyat

1. https://wikipedia.org>wiki
2. https://www.muhaz.org/1-cinayet-huququnun-anlayısı-vezifeleri
3. https://www/pa.edu.az>library>1_m.1.pdf
4. https//kayzen.p.a.edu.az>blog>law
5. https://www.p.a.edu>674_cah/mubarize

**Rəyçi: h.ü.e.d. Əmir Əliyev**

Göndərilib: 13.09.2022 Qəbul edilib: 03.11.2022

DOI: https://doi.org/10.36719/2789-6919/15/26-28

**Mirzəbala Təbrik oğlu Poladov**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
doktorant
mirze.poladov@list.ru

# ANALİTİKANIN ƏMƏK MÜNASİBƏTLƏRİNİN TƏKMİLLƏŞDİRMƏSİNDƏ ROLU

**Xülasə**

Texnologiyanının sürətlə inkişaf etməsi nəticəsində formalaşan informasiya əsrində məlumatların əlaqələrin qurulmasının asanlaşması, axınının sürətlənməsi, elmin öz inkişafının pik həddinə çatması və s. kimi amillərin nəticəsində idarəetmə kimi sahələr hərtərəfli inkişaf etməyə başlamışdır. Şirkətlər müasir dövrün imkanlarına və tələblərinə uyğun olaraq klassik idarəetmə nəzəriyyələrindən birdəfəlik uzaqlaşmaq və hazırki dəyişim sürətinə uyğunlaşmaq fikrini qəbul etməlidirlər. Son 90 il ərzində İRİ baş vermiş bir sıra köklü dəyişikliklər nəticəsində İRİ əməliyyat yönümlüdən strategiya yönümlü istiqamətə doğru hərəkət etmişdir.

***Açar sözlər:*** *İnsan potensialı, insan resursları, analitika, əmək, iş*

**Mirzabala Tabrik Poladov**
Azerbaijan State Oil and Industrial University
PhD student
mirze.poladov@list.ru

## The role of analytics in improving labor relations

**Abstract**

In the information age formed as a result of the rapid development of technology, it is easier to establish connections, speed up the flow of information, reach the peak of the development of science, etc. As a result of such factors, areas such as management began to develop comprehensively. Companies must accept the idea of moving away from classical management theories and adapting to the current speed of change according to the opportunities and requirements of the modern era. Over the past 90 years, HRM has moved from an operation-oriented to a strategy-oriented direction as a result of a series of radical changes.

***Keywords:*** *Human potential, human resources, analytics, labor, business*

## Giriş

Bu gün müəyyən qədər təcrübəyə və maliyyə resurslarına sahib, dəyişikliklərə effektiv şəkildə reaksiya verən və daima inkişafa köklənən təşkilatların öz fəliyyətlərinə data analizini tətbiq etmə şansı digər şirkətlərə nisbətən daha yüksəkdir. "Big Data" kimi adlandırılan, "verilənlər", "məlumatlar", "informasiyalar" kimi mənaları olan bu termin günümüzdə aktualdır (Sant, 2016: 91).

İR analitikası nədir və onun tətbiqi hansı üstünlükləri vəd edir?

İRİ-nin konsepsiyası daha effektiv və məhsuldar töhfə verən mexanizm hazırlamaq və bununla şirkətin məqsəd və vəzifələrinin yerinə yetirilməsini təmin etməkdir. Bu gün bütün şirkətlərdə İR departamentinin olması heç də təsadüfi deyil. İR və onunla bağlı proseslər rəqabət üstünlüklərinə sahib olmaq və şirkətlərin fəaliyyətlərini uğurla davam etdirə bilmələri üçün kifayət qədər aktual xarakter daşıyır.

Hazırda İRİ sahəsində yeni bir tendensiya - İR analitikası gündəmdədir. İR analitikası, etibarlı informasiyalarla əlaqəli olan İR-nın idarə edilməsinə istiqamətləndirilmiş bir fəaliyyətdir. İR analitik modelləri işçiləri və bundan əlavə yeni namizədləri statistik modellər vasitəsi ilə daha yaxşı tanımaq, işə qəbul və işdən sonrakı proseslərdə düzgün qərar qəbul etməyə imkan verir. Keçən son 100 il ərzində İRİ əməliyyat yönümlüdən strategiya yönümlü istiqamətə doğru hərəkət etmişdir

(Bersin, O'Leonard, Wang-Audia, 2013). Hazırki dövrdə isə data yönümlü İRİ aktualdır. Bu günki dövrdə "Royal Dutch Shell", "IBM" "Google", "Facebook", "Xerox", "Juniper Networks", "İnstagram" kimi müxtəlif sahələrdə dünyanın öndə gedən şirkətləri data analitikasından, həmçinin İR analitikasından effektiv istifadə edirlər. "IBM" işçi anketlərini və testlərin nəticələrini menecerlərin qiymətləndirilmələri ilə müqayisə etmiş, satış sahəsində müvəffəqiyyətli olmaq üçün ən vacib xarakteristikanın əslində "emosional cəsarət" olduğunu müəyyən etmişdir. Bu kriteriyalara uyğun olan namizədləri işə cəlb edən "IBM" tezliklə satışlarının həcmini yüksəltmişdir. Data üzərində qurulmuş bir şirkət olan hamımızın yaxşı tanıdığı – "Google" də İR analitikasından istifadə etməklə işə qəbul proseslərini qiymətləndirir. "Deilotte" institunun apardığı araşdırma İR analitikasından istifadə edən təşkilatların, istifadə etməyən təşkilatlara görə əhəmiyyətli bir üstünlüyə sahib olduğunu ortaya qomuşdur. Araşdırmaya görə, fəaliyyətləri zamanı qəbul etdikləri qərarları dəstəkləmək üçün İR analitikasından istifadə edən təşkilatların, digər təşkilatlara nisbətən üç illik orta qazancı 82%-ə qədər daha yüksək olur (Agarwal, 2018: 33).

Üst səviyyə işəgötürənlər institutu (Top Employers Institute) və "Bright & Company | HR Strategy"- nin 2016-ci ildə birgə reallaşdırdığı araşdırmada dünya üzrə 200 şirkət arasında sorğu keçirilmişdir. "Bright & Company | HR Strategy" İR, sorğu və anketlər, eyni zamanda analitika ilə bağlı kifayət qədər təcrübəyə və biliklərə sahib olduğundan, sorğunun nəticələrini dərindən araşdırmağa nail olub. Analitikadan yüksək səviyyədə istfadə edən (I qrup) və analitikadan istifadəyə yeni başlayan (II qrup) 200 təşkilat arasında sorğu aparılmış - onların təcrübələri, tətbiqləri, istifadə etdikləri metodlar sorğu nəticəsində öyrənilmişdir.

Şirkət rəhbərləri adətən öz çalışanlarına yüksək səviyyədə investisiya qoyurlar, lakin, İR menecerlərinin əksəriyyəti işçilərə qoyulan bu cür sərmayələrin dəyərini və gəlirlərini "sübut edə bilmirlər". Lakin, mövcud rəqabət mühitində şirkət rəhbərləri və İR menecerləri İR inkişaf etdirmək üçün İR analtikasını qəbul etməlidirlər (Reddy, 2017: 649).

Adətən əksər təşkilatların İR analtikasının imkanlarını mənimsəməsi çətin olur. "Deloitte" institutu tərəfindən 2018-ci ildə aparılan "Qlobal İnsan Kapitalı Tendensiyaları" araşdırması çərçivəsində 124 ölkədəki 11.000 iş adamı və İR meneceri arasında sorğu keçirilmişdir. Sorğuda iştirak edənlərin 84%-i yəni təxminən 9.420 nəfəri, İR xərclərini idarə etmək üçün analitikadan istifadəni vacib hesab edərək, İR analitikasının tətbiqi nəticəsində əldə edilən nəticənin yüksək olduğunu vurğulamışdır (Agarwal, 2018: 18). İR analitikasının tətbiqi zamanı dataların təhlükəsizliyi məslələri də vacib rol oynayır. Belə ki, işçilərin əksəriyyəti məlumatların kiber hücumlara qarşı həssas ola biləcəyindən qorxur, yəni onlara aid məlumatların ələ keçirilməsindən ehtiyat edirlər. Sorğuda iştirak edən şirkətlərin 75%-i məlumatların mühafizəsinin vacibliyini qəbul etsə də, onlardan yalnız 22%-i işçilərin məlumatlarını qorumaq üçün yüksək səviyyəli mexanizimlərə malikdir (Agarwal, 2018: 76).

Uğurlu İR analitikası tətbiq etmək üçün hansı addımlar atılmalıdır? Analitika təşkilati strategiyanın mərkəzini təşkil edir. Bu baxımdan atılmalı olan ilk addımlardan biri, bütün məlumatları idarə etmək və təhlil etmək üçün düzgün strategiya və texnologiyaya investisiya qoymaqdır. "Bright & Company | HR Strategy" İR analitikasının tətbiqinə başlamaq istəyən və ya bu haqqda öyrənmək istəyən təşkilatlara bir sıra önəmli tövsiyyələr təqdim etmişdir:

1. İş proseslərinin yaxşılaşdırılması İR analitikasının tətbiqi ilə reallaşdırılmalıdır;
2. İR analitikası tətbiqləri şirkətin strategiyasına uyğun olmalıdır;
3. Əmin olun ki, həm İR ilə bağlı, həm də təhlil etməyi hədəflədiyiniz digər istiqamətlər ilə əlaqədar olan məlumatlarınız dəqiq və etibarlıdır;
4. Məlumatların məxfiliyi və idarə olunması prosesləri cəlb edilmiş bütün tərəflərlə öncədən mübahisə edilməli, qərarlar qəbul edilməli daha sonra isə məlumatların toplanmasına və təhlilinə başlamazdan əvvəl dəqiq sənədləşdirilməlidir;
5. Məlumatlar və ya datalar ehtiyac olarkən istifadə etmək məqsədilə prosesə öncədən cəlb edilmiş bütün tərəflərə əlçatan olmalıdır;
6. İR analitikasının təhvil tarixi dəqiq müəyyənləşdirilməlir və s. (Top Employers Institute and Bright & Company, 2016: 9).

## Nəticə

Artıq İRİ-də əsəs hədəf - "şirkətə ən bacarıqlı, bilikli insanları hansı yolla cəlb etməli və həmçinin qarşıya qoyulmuş ortaq bir məqsədə çalışanlarla birlikdə necə sahib olmalı?" sualına cavab vermək olmalıdır; Şirkətlər İR analitikası sahəsində kifayət qədər bacarıqlara sahib olan analitikləri fəaliyyət proseslərinə daxil etməlidirlər; İR menecerləri şirkətin ehtiyaclarını ödəmək üçün İR analitikasını təşkilati məzmuna, hədəfə və mövcud strategiyasına uyğunlaşdırmalıdırlar; İR analitikasından istifadə zamanı datalar etibarlı və dəqiq olmalıdır; Şirkət rəhbərliyi işçilərə də müştərilərə qarşı olduğu kimi həssaslıqla yanaşmalı, onların motivasiyasını və şirkətə olan etimadını artırmaq üçün addımlar atılmalıdır;

## Ədəbiyyat

1. Sant, S. (2016). A study on the HR analytics competitive advantage for organization as a HR strategy. Journal of Advances in Business Management. 2, 91 p.
2. Bersin, J., O'Leonard, K., Wang-Audia, W. (2013). High-impact talent analytics: Building a world-class HR measurement and analytics function, Bersin by Deloitte.
3. Agarwal, D., Bersin, J., Lahiri, G., Schwartz, J., Volini, E. (2018). Global Human Capital Trends: The rise of the social enterprise, 114 p.
4. Reddy, P. (2017). HR analytics-An effective evidence based HRM tool. International Journal of Business and Management Invention, 6(7), p.23-34.
5. Top Employers Institute and Bright & Company | HR strategy. (2016). Organisıng for HR Analytics Success Results of the HR Reporting & Analytics Study. 26 p.

**Rəyçi: i.ü.f.d. Kamran İsayev**

Göndərilib: 11.09.2022 Qəbul edilib: 04.11.2022

## İÇİNDƏKİLƏR

**Lala Azad Hamidli**
Using Jungian learning styles to improve academic performance ………………………………… 7
**Şəhla Akif qızı Səfərli**
Turizmin inkişafının nəzəri aspektləri……………………………………………………………...13
**Xədicə Qabil qızı Babayeva**
İran qaşqayları və Azərbaycan türklərinin ortaq dili və tarixinə ümumi baxış……………………..20
**Nəhayət Mübariz qızı Hüseynli**
Azərbaycan Respublikasının cinayət hüququ: predmeti, vəzifələri, prinsipləri ………………..….23
**Mirzəbala Təbrik oğlu Poladov**
Analitikanın əmək münasibətlərinin təkmilləşdirməsində rolu …………………………………....26

İmzalandı: 18.12.2022
Formatı: 60/84, 1/8
H/n həcmi: 3,75 ç.v.
Sifariş: 600

https://aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az